Ədəbiyyat qəzeti
7 noyabr / 2020

Dəmir ÇEŞMƏLİ

## Qurtardım

Dərələdim, dərə keçdim,
Ov hürkütdüm, bərə keçdim,
Keçdim, sənə görə keçdim,
Keçdim, zülümnən qurtardım.

Səmtində izləntim vardı,
De, bəlkə gizləntim vardı?
Yaş üstə gözləntim vardı,
Axdı, gölümnən qurtardım.

Sular daşdı, bilinmədi,
Yanı daşdı, bilinmədi,
Yaşı yaşdı, bilinmədi,
Batdım, çölümnən qurtardım.

Yaxşımı yamana verdim,
Nağdımı gümana verdim,
Bərəmi dumana verdim,
Özcə əlimnən qurtardım.

Sövdə dəmini unutdum,
Dəmin kəmini unutdum,
Eşqin himini unutdum,
Solğun gülümnən qurtardım.

Sonaladım sonaları,
Yaşamışdım son sonları.
Tez unutdum o anları,
Öldüm, ölümnən qurtardım.

## İstəyirəm

Yol alıb düzüynən gəldim,
Ot basmış iziynən gəldim,
O üz, bu üzüynən gəldim,
Baxıb, getmək istəyirəm.

Dərə içi ləngimişəm,
Yoxuş üstü təngimişəm.
Yana-yana səngimişəm,
Çıxıb getmək istəyirəm.

Zaman-zaman qurulmuşam,
Yatağımda durulmuşam.
Dayanmaqdan yorulmuşam,
Axıb, getmək istəyirəm.

Üzümə dayanır vuran,
Yava qurğu qurur quran.
Aradı arada duran,
Yıxıb, getmək istəyirəm.

## Vaxtı var

Gecədi gecə yarısı,
Dərd vaxtı var, sirr vaxtı var.
Ulduzların ay ziyası,
Kainatın nur vaxtı var.

Tufana dönübdü dönən,
Dindirib dinirmiş dinən.
Gözümə çəkmişəm dünən,
Təbiətin nər vaxtı var.

Gələnnən gedənə yoldu,
Hərəsi bir yöndən oldu.
Boşalan dolandan doldu,
Dalğaların gur vaxtı var.

Tanrıdan gəlirmiş gələn,
Yolçuymuş yolunu bilən.
Üfüqdən doğulur ölən,
Əzrayılın yer vaxtı var.